# ZİYALI ÖMRÜ

## (Akif Əlinin 65 yaşına)



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Akif Əli mənim "qədim" dostlarımdan biridir. Xatırlayıram yetmişinci illərin sonlarını-səksəninci illərin əvvəllərini. O, tez-tez Şərifzadə-33-də yerləşən Aspirantlar yataqxanasına gəlirdi. Akif indi Azərbaycanın Macarıstandakı səfiri, görkəmli ədəbiyyatşünas, filologiya elmləri doktoru, amma o zaman adicə aspirantlıq dövrünü yaşayan Vilayət Quliyevlə dostluq edirdi, məni də Vilayətlə birləşdirən cəhətlər çox idi və Akif Vilayətin yanına gələndə mütləq məni də çağırırdılar. Biz ədəbiyyat haqqında söhbətlər edirdik, mübahisələrimiz olurdu və sonda Akifi "təntənə" ilə yola salırdıq.**

Dostluq haqqında çoxlu şeirlər yazılıb, poemalar qələmə alınıb, mahnılar bəstələnib, hətta bu mövzuda fəlsəfi əsərlərin də adlarını çəkmək olar. Bizim dostluğumuz "maddi" deyil, mənəvidir. Hansı bir müəllifin yazısında oxumuşam ki, dostluq iki şəxsin bir-birinə yox, eyni tərəfə baxmağı deməkdir. Akif Əlinin düşüncələri ilə (bəzi istisnalar olsa da) mənim düşüncələrim, həyata, gerçəkliyə, cəmiyyət hadisələrinə, dünyaya münasibətimiz çox vaxt üst-üstə düşür. Bu ədəbi mühitin ən böyük bəlalarından biri budur ki, yazarların bir çoxu, özü də ədəbi camiyədə çox məşhur olan ediblər, söz adamları bəzən bir-birlərindən xəbərsizdirlər, bir-birlərinin yazılarını oxumurlar. Amma Mən və Akif Əli belə deyilik. Mən onun mətbuatda çıxan yazılarını oxumuşam, televiziyada gedən "Zaman və Məkan" verilişlərini izləyirəm (Akifin çağırışı ilə üç dəfə bu verilişdə onun suallarına cavab vermişəm), mənə bağışladığı kitablarını həvəslə mütaliə etmişəm və s. Akifin Babək hərəkatından bəhs edən "Azman" romanı haqqında ilk məqalənin müəllifi də mənəm. O da mənim müxtəlif mətbuat orqanlarında dərc edilən yazılarımı oxuyur, fikrini də bildirməkdən çəkinmir..

Akif Əli bugünkü Azərbaycan ziyalılığının sayılan, seçilən nümayəndələrindən biridir. Ziyalılığın əsas şərtlərindən biri mədəni səviyyədir. Akif mədəni insandır. Təkcə oturuşu, duruşu, tərəfi-müqabilləri ilə səmimi rəftarı bir yana, düşüncəsi, müasir dünyaya baxışı da mənim dediklərimi təsdiq edə bilər. Mədəni adam Akif kimi olar, - qənaətini bəzi müşahidələrimlə təsdiq edə bilərəm.

Akif bilikli, savadlı, dünyagörüşü zəngin olan bir ziyalıdır. Onun bu keyfiyyəti yazılarında da hiss olunur. O, dünya ədəbiyyatından, dünya filosoflarının əsərlərindən xəbərdardı, Qərbi də, Şərqi də -hər iki aləmin özünəməxsus xüsusiyyətlərini, bir-birindən fərqli cəhətlərini kifayət qədər öyrənib, mənimsəyib. Lakin ilk növbədə, Azərbaycan ziyalısıdır. Mirzə Cəlili, Sabiri, Üzeyir bəyi çox sevir və elə ondakı yüksək mədəniyyət ziyallılıq ənənədən gəlir.

Akif yaradıcı adamdır. Bir yaradıcı adama xas olan daim yazmaq, yaratmaq eşqi onu heç vaxt tərk eləməyib. Bütün günü Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri kimi başından aşan iş belə onu bədiiyyat dünyasından ayıra bilmir. Vaxt tapıb bədii və publisistik əsərlərini yazır, həftədə bir dəfə televiziyada veriliş aparır, müxtəlif tədbirlərdə iştirak edir. Amma yazır.

Nə yazırsa, istedadla yazır. Sözünün, cümləsinin, üslubunun səliqəliliyinə söz ola bilməz. Təmiz yazır, mücərrədliyə, başaçılmaz cümlələrə meyl eləmir.

Akif elm adamıdır. Onun Sabir sənətkarlığı ilə bağlı monoqrafiyası sabirşünaslığa qiymətli bir töhfədir. Elə bu mövzuda namizədlik dissertasiyası müdafiə edib, elmi rəhbəri Yaşar Qarayev - o böyük alimimiz olub. Əgər Akif sırf elmlə məşul olsaydı, sizi inandırıram ki, o, müasir tənqidçi-ədəbiyyatşünasğlar arasında birinci sıralarda olardı.

"Mirzə Ələkbər Sabirin satira sənətkarlığı" monoqrafiyası mənim fikrimjə, sabirşünaslığa dəyərli bir töhfədir və Akif bu əsərlə sübut elədi ki, Sabir yaradıjılığı illər keçdikjə öz müasirliyini qətiyyən itirmir, əksinə, həyatın hər bir mərhələsində xalqı, milləti özünü dərk etməyə, zülmə, haqsızlığa qarşı mübarizəyə səsləyir. "M.Əö Sabirin satira yaradıjılığı bu jün də öz aktuallığını itirmir və biz daim onu sablam mübarizələrin önündə görürük. Bugünkü inkişafımıza mənfi təsir göstərən hallara və ünsürlərə-bürokratlara, gözdən pərdə asanlara, rüşvətxorlara, mənsəbpərəstlərə, yerlibazlara, hərislərə qarşı mübarizələrdə ağır silahın-satiranın sərrast atəşlərinə, sabiranə poeziyanın hüjum enercisinə daha çox ehtiyaj duyulur"-bu fikir A.Əlinin Sabirə həsr etdiyi monoqrafiyanın başlıja qayəsini təşkil edir. A.Əli görkəmli ədəbiyyatşünas Jəfər Xəndandan sonra Sabir satiralarının poetik xüsusiyyətlərini araşdıran istedadlı bir tədqiqatçı kimi diqqəti jəlb edir.

Amma Akif Əli təkjə bir monoqrafiya ilə deyil, çoxdu sayda esseləri və ədəbi-tənqidi yazıları ilə də oxujulara yaxşı tanışdır. Onun müasir ədəbiyyatımız haqqında qələmə aldığı yazıları, həmçinin dünya və mili ədəbiyyatımızla bağlı düşünjələri maraqla qarşılanır.



Akif istedadlı nasirdir. "Azman" romanı və müxtəlif mövzularda qələmə aldığı xeyli hekayələri var. "Azman" Akifin ilk romanıdır və deyim ki, roman praktikasına yaxşı bələd olmasaydı, belə bir əsəri yazmağa cəsarət eləməzdi.Babək haqqında, onun misilsiz qəhrəmanlığı və yurdsevərliyi barədə bir çox əsərlər yazılıb, amma A.Əli yenidən bu mövzuya mürajiət edib və bu romanda Babəkin ödüm səhnəsini qəhrəmanlığın müstəbidlik üzərində qələbəsi kimi təsvir edib.

Hekayələrinin çoxu satira və yumor tərzindədir. Akifdə güclü yumor hissi var. Hiss olunur ki, o, Mirzə Cəlildən, Sabirdən, Haqverdiyevdən çox faydalanıb, amma təqlid eləməyib onları, satira və yumorlu yazılarında öz üslubunu yaradıb. Amma elə yazıları var ki, lirika üstə köklənib.

Akif müasir publisistikada SƏSİ, SÖZÜ ÜSLUBUyla seçilir. Ümumiyyətlə, həyatı, hadisələri, təsvir etdiyi insanları son dərəcə real, sərt həqiqət prizmasında oxucuya təqdim edir. Publisistika onun bədii əsərlərində də nöqsana yox, məziyyətə çevrilir.

Akif müasir mətbuatımızın fədailərindən biridir, -desəm, heç də səhv etmərəm. Təkcə ona görə yox ki, "Vətən səsi" qəzetində baş redaktor olub və bu qəzet mətbuat tariximizdə silinməz izlər buraxıb. Təkcə ona görə yox ki, hal-hazırda on ildən artıq Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəridir və belə bir məsul vəzifədə yorulmadan çalışır. Həm də ona görə ki, o, mətbuatımızın təəssübünü çəkir, onun nailiyyətləri və uğurları ilə qürur duyur, nöqsanları ilə barışmır.

Öncə qeyd etdim ki, Akif həm də esseistdir. Qısa, yığcam, amma maraqlı esseləri, deyimləri, miniatür nəsr parçaları Akifin az sözlə çox söz demək istedadını ortaya çıxarır. Bu yazılarda fəlsəfi düşünüş tərzi də diqqəti cəlb edir. Amma Akif "filosofluq" iddiasında deyil.Onun "İdrak" kitabında toplanan esseləri "fikirlər, düşüncələr, dey imlər" kimi təqdim edilir. Bu kitab Akifin dünya ədəbiyyata, estetik fikir tarixinə, Azərbaycan ədəbiyyatına və Azərbaycan insanına nejə maraq göstərdiyini və bu marağı bədii publisistika dili ilə ifadə etdiyini açıqlayır.

Akif Əli Heydər Əliyevin-Ulu Öndərin pərəstişkarıdı və bu pərəstiş hissi təbiidir. O, çox gözəl anlayır ki, Heydər Əliyev Azərbaycanın min illər ərzində yetirdiyi dahilərdən biridir. Azərbaycan bir də belə dahi yetirəcəkmi? Akif Əlinin Heydər Əliyevə həsr etdiyi silsilə yazılarda bu suala cavab var. Yox, yetirməyəcək!

Mən Akif Əlinin obrazını nəzərinizdə canlandırmağa çalışdım. Nə dərəcədə nail oldum, deyə bilmərəm. Və sonda deyim ki, Akif əsil azərbaycanlıdır. Son dərəcə mili xüsusiyyətlərə malikdi. Akifi Azərbaycandan kənarda təsəvvür etmək mümkün deyil.

Akif Əli haqqında kitab yazmaq fikri məndə 2015-ci ildə yarandı. 2016-cı ildə bu barədə Akifə də işarə etdim, gülümsədi və heç nə demədi.

**Və yazdım. Sizə həmin kitabın "Giriş" hissəsini təqdim etdim. Akif Əlinin bu gün-22 fevralda 65 yaşı tamam olur. Bütün dostlarının və "Ədalət" qəzetinin çoxsaylı oxujuları adından onu təbrik edirəm!**

ədalət.-2017.-22 fevral.-S.3.